**UOT 792**
**https://doi.org/10.59849/2311-8482.2024.1.202**

**ZENFİRA SEYİDOVA[1], SEVDA OCAQQULİYEVA[2]**

# MEMORİAL MUZEYLƏRDƏ BƏDİİ-ESTETİK TƏRBİYƏNİN ƏHƏMİYYƏTİ

*Sosial əhəmiyyətli informasiyanın qeydə alınması və ötürülməsi səviyyələrindən birini, memoriallaşdırma, əbədiləşdirmə təşkil edir. Muzeylər insanlar, əcdadlarımız haqqında yaddaşı, xatirəni saxlamaq missiyasına xidmət etməlidir. Məqalədə memorial muzeylərin fəaliyyətindən və onun bədii estetik tərbiyənin formalaşmasındakı rolundan bəhs edilir. Sosial əhəmiyyətli informasiyanın qeydə alınması və ötürülməsi səviyyələrindən birini, memoriallaşdırma, əbədiləşdirmə təşkil edir. Milli özünüdərkin formalaşdırılması dövründə sosial, ölkə və millətin tarixinin əbədiləşdirilməsi institutu kimi təşəkkül tapan muzeylər çox vaxt milləti təşkil edən ayrı-ayrı insanları diqqətdən kənarda saxlamış olur. İnsanların şəxsi yaşayış yerləri, məkan və əraziləri muzey vəzifələrini yerinə yetirmiş olur. Mənzildəki portretlər, saralmış məktublar, köhnə mebel, onun sahibi haqqında böyük fikirlər söyləyən, xatirəni yaşadan mənbələrdir.*
***Açar sözlər:*** *memorial muzeylər, estetika, eksponat, bədii-estetik tərbiyə, ekspozisiya.*

## Giriş

Azərbaycanın dövlət müstəqilliyi şəraitində muzeylərimiz yeni fəaliyyət imkanları qazanmışdır. Müasir dövrdə əyani təbliğat vasitəsi kimi xatirə muzeylərinin əhəmiyyəti xüsusilə genişdir. Belə ki, Azərbaycanı xarici aləmə tanıtmaq, onun haqq səsini dünya ictimaiyyətinə çatdırmaq, xalqda özünə inam aşılamaq, vətənin tərəqqisi, müstəqilliyi və ərazi bütövlüyü naminə fədakarlıqla ruhlandırmaq baxımından muzeylər müstəsna əhəmiyyət kəsb edir.

## Əsas təhlil

Bu gün insan fəaliyyətinin müxtəlif sahələrində tərcümeyi-hal janrına diqqət mühüm əhəmiyyət kəsb edir. Tədqiqat problemi kimi tərcümeyi-hal və ya bioqrafiya ədəbiyyatşünaslıq, tarix, kulturologiya ilə yanaşı həm də muzeyşünaslığın araşdırma predmetinə çevrilmişdir. Bəlkə də, bunlar qeyd olunan elmlərdən daha çox muzeyşünaslıq üçün daha zəruri və aktuallıq kəsb edir. Muzeylərin xatirə-ev, memorial kimi yeni tiplərinin yaradılmasına zəmanət verən əsas meyar bioqrafiyanın əbədiləşdirilməsidir. Tanınmış, görkəmli şəxsiyyətin bioqrafiyası özünüdərk aktına çevrilir, dahi şəxsiyyətin tərcümeyi-halı insan təbiətinin imkanlarını nümayiş etdirir. Tədqiqat layihələrində, eləcə də muzey məkanında həyata keçirilən bioqrafiyalar cəmiyyətin, bütövlükdə bəşəriyyətin mənəvi inkişafını nümayiş etdirir. Sayca xatirə obyektlərinin qorunmasına çox nail olduqca, tarixi şəxsiyyət, yaxud da tarixi hadisə fenomeni daha tam və bütöv şəkildə aydınlaşır.

Ziyarətçi xatirə-ev, memorial muzey məkanında gündəlik həyatda görmədiyini, hiss edə bilmədiyini hiss edə bilər, tarixin müxtəlif məqamları ilə tərcümeyi-hallarla tanış olmaq imkanlarını əldə edə bilər, müasir insanın bütöv şəkildə ruhən həyəcan kompleksini görə bilər. Memorial muzey məkanı bu kimi hislərlə səsləşir. Fransız alimi Pyer Nora bu haqda yazırdı: "Biz keçmişin gündəlik həyatını öyrənirik, çünki günlərin aramla örtməsini, əşyaların rahiyəsini bərpa etmək istəyirik, adi insanların tərcümeyi-halını elə oxuyuruq ki, sanki bunlar aşağıdakıları dərk etməyimizə kömək edir: "Kütlənin çəkisini bilmədən... onu dərk edə bilməzsən. Biz keçmişin qırıntılarını bu sonsuz mikrotarixlərdən bir yerə toplamaq məqsədilə qoparırıq və bərpa edəcəyimiz tarixin hal-hazırda yaşadığımız tarixə bənzəyəcəyinə ümid edirik" ( 5, s. 67–68).

Azərbaycanda muzeylərin bu tipinə maraq hələ ötən əsrin əvvəllərində 1930-cu illərdə yaranmışdır. Respublikada ilk memorial muzey Nuxada milli dramaturgiyanın banisi M.F.Axundovun yaşadığı mənzildə açılmışdır. Uzun müddət respublikanın muzey şəbəkəsində yeganə olan bu sahədəki boşluq 1970- 80-ci illərdə respublikaya rəhbərlik etmiş ümumilli lider Heydər Əliyevin ye- ritdiyi muzey siyasəti ilə aradan qaldırıldı. Belə ki, Heydər Əliyevin rəhbərliyi ilə təsdiqlənmiş Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsi və Azərbaycan SSR Nazirlər Sovetinin 1976-cı il 16 iyun tarixli "Dahi ədəbiyyat və incəsənət xadimlərinin xatirəsinin əbədiləşdirilməsi haqqında" 223 №-li və Azər- baycan SSR Mədəniyyət Nazirliyinin 1979-cu il 31 oktyabr tarixli qərarları əsasında respublikada memorial ev muzeylərinin təşkilinə təkan verildi. Memorial muzeylərin yaradılma

zərurəti və aktuallığını ulu öndər Heydər Əliyev aşağıdakı fikri ilə belə təsdiqləyir: “Azərbaycan xatirəsini əbədiləşdirməyi vacib olan dahi şəxsiyyətlərlə şöhrətlənmişdir. Gələcək nəsillər onların həyat və yaradıcılığını bilmir. Bu sahədə müxtəlif vasitələrdən istifadə etmək lazımdır” (6).

Görkəmli şəxsiyyətlərin xatirəsinə, yaddaşlarda həkk olunmuş hər hansı tarixi hadisə ilə bağlı əraziyə həsr edilmiş, Memorial muzeylər tarix muzeyləri sırasında xüsusi yer tutur (7, səh 722-723).

Azərbaycanda memorial, xatirə muzeylərinin əksəriyyəti, o cümlədən, Səməd Vurğun, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Cəfər Cabbarlı, Məmməd Səid Ordubadinin ev muzeyləri muzeylərə, muzey işinə böyük önəm verən Heydər Əliyevin fərman və sərəncamları ilə yaradılmışdır. Muzey işinə böyük önəm verən Heydər Əliyev hesab edirdi ki: “Muzeylərin mənası, əhəmiyyəti sadəcə olaraq bir ədibin həyat yolunu və yaradıcılığını təbliğ etməkdən ibarət deyildir. Azərbaycan xalqının tarixini təbliğ və əks etdirməkdən, mədəniyyətimizin səviyyəsini göstərməkdən ibarətdir” (8, s.117).

Qeyd edim ki, əhalinin bədii-estetik tərbiyəsi müstəqillik qazanmış cəmiyyətdə hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşdırılması üçün zəruri şərtlərdən biridir. (1. Səh.145). Əhalinin bədii-estetik tərbiyəsində ümumiyyətlə, muzeylər, xüsusilə də memorial muzeylərin öhdəsinə mühüm vəzifələr düşür.

Memorial muzeylərin məxsus olduğu görkəmli şəxslərin fəaliyyət göstərdiyi elm və mədəniyyət sahəsinə uyğun olaraq, burada müxtəlif mövzularda söhbət, dərslərin və mühazirələrin təşkil etməyin əhəmiyyəti xüsusilə böyükdür. Bu muzeylərin işçiləri təşkil etdikləri muzeyin profilinə uyğun olaraq, tarixçi, filoloq, musiqişünas, rəssam, heykəltəraşlıq sahələrində geniş məlumatlara malik olmalı, tamaşaçılar qarşısında izah etdkləri mövzunu dərindən bilməlidirlər.

Muzey işçilərinin bədii-estetik baxımdan hazırlıqlı olması, onların bədii estetik səviyyəsi muzey eksponatlarının zövqlə tərtib edilməsində və tamaşaçıların daha fəal surətdə cəlb edilməsinə kömək edir. Burada başlıca vəzifə müxtəlif kateqoriyalı tamaşaçıların yaradıcı təşəbbüskarlığını artırmaq, bütün tamaşaçılarda mənəvi mədəniyyətin ayrılmaz hissəsi kimi bədii-estetik mədəniyyətin əsas prinsiplərini formalaşdırmaqdan ibarətdir. Buna görə də bədii estetika mövzusunda məşğələlərin proqramları bu sahəyə məxsus prinsip və metodlardan istifadə etməklə işlənib hazırlanmalıdır.

Tamaşaçıların bədii-estetik tərbiyəsi üzrə metodik proqramların işlənib hazırlanması, bu proqramların işlənib hazırlanması, bu proqramların bütün mövzu və hissələrinin bir-birilə əlaqələndirilməsi, onların vahid tam halına salınması mühüm rol oynayır. Görünür ki, tamaşaçıların bədii-estetik tərbiyəsinin üç növündən-kütləvi, kollektiv və fərdi estetik tərbiyə üsullarından istifadə etmək məqsədəuyğundur. Bu baxımdan, incəsənətin, ədəbiyyatın və musiqi yaradıcılığının bir-birindən təcrid edilərək onlara yaradıcı fəaliyyətin ayrı-ayrı sahələr kimi yanaşılması meyllərinin qarşısını almaq və onları bir-birilə daha sıx əlaqələndirərək bədii-estetik tərbiyə sahəsində istifadə etmək daha böyük səmərə verir (1.səh.146). Beləliklə, əhalini bədii-estetik tərbiyəyə daha yaxından cəlb etmək imkanı yaratmış olur. Xatirə muzeylərinin fəaliyyətinin bu mühüm sahəsində estetik amillərlə etik amillərin sıx vəhdətini rəhbər tutmaq lazımdır. Məsələn, bu və ya digər elm, incəsənət və ya ictimai xadimin qazandığı konkret uğurlardan bəhs edərkən, bu uğurların möhtəşəmliyi və böyüklüyü ilə bərabər, həm də onları qazanmağa imkan verən müqəddəm şərtləri də, onların qazandığı tarixi şəraiti də göstərmək lazımdır ki, görkəmli elm və mədəniyyət xadimlərinin uğurları heç də təsadüfi nailiyyətlər deyildirlər. Əksinə, onlar milli şüurun və milli mədəniyyətin inkişafının, onun özünəməxsus xüsusiyyətlərinin ifadəsidir. Tamaşaçılarda bu görkəmli elm və mədəniyyət daşıyıcıları və hərəkətverici qüvvələri olan bu ziyalıların mənəvi siması haqqında tam təsəvvür yaratmaq heç də “bir qrup qabaqcıl ziyalının” nailiyyətlərindən ibarət olmayıb, çoxəsrlik ənənələrə malik olan milli mədəniyyətin ümumi inkişafını əks etdirir. Bunun üçün xatirə muzeylərinin fəaliyyət proqramının əsasına bədii mədəniyyətin öyrənilməsi prinsiplərini qoymaq, əhalidə gözəlliyin, kamilliyin və qabaqcıl mədəniyyətin meyar və göstəricilərini müəyyənləşdirmək lazımdır.

Məsələn, görkəmli şairimiz Səməd Vurğunun ev muzeyində nümayiş etdirilən saz, royal və piano vaxtilə bu sazda “Misri”, “Dilqəmi”, “Sarıtel”, “Yurd yeri” neçə-neçə el havası ifa etməsi barədə maraqlı məlumatlar, şairin aşıq poeziyasının nəşri, yayılması, habelə öyrənilməsi sahəsində səmərəli fəaliyyəti haqda materiallar tamaşaçıların bədii-estetik zövqünə müsbət təsir göstərməyə bilməz. Muzeyin işinin günün tələbləri səviyyəsində qurulması həyatımızda baş verən mühüm sosial-siyasi hadisələrlə əlaqələndirilməsi şairin bədii irsindən məqsədyönlü şəkildə istifadə edilməsi tamaşaçı

kütləsinin yüksək bədii estetik prinsip və meyarlar zəmnində tərbiyə edilməsinə şərait yaradır.

Əhalinin bədii-estetik tərbiyəsinin proqramını hazırlayarkən bədii mədəniyyət amilinin vahid bir tam şəkildə və onu tarixi inkişaf prosesində izləmək lazımdır.

XX əsr Azərbaycan elm və mədəniyyət nümayəndələrindən bəhs edərkən onların yaradıcılığını daha əvvəl yaşayıb-yaratmış milli-vətənpərvər ziyalılar yaradıcılığından götürmüş olduğunu, milli mədəniyyətin bütün qatları arasında qırılmaz varislik əlaqəsinin mövcud olduğunu tutarlı dəlillərlə sübut etmək lazımdır. İzah olunmalıdır ki, bu uğur və nailiyyətlər heç də bir qrup qabaqcıl ziyalının nailiyyətlərindən ibarət olmayıb, çoxəsrlik ənənələrə malik olan milli mədəniyyətin ümumi inkişafını əks etdirir. Bunun üçün xatirə muzeylərinin fəaliyyət proqramının əsasına bədii mədəniyyətin öyrənilməsi prinsiplərini qoymaq, əhalidə gözəlliyin, kamillyin və qabaqcıl mədəniyyətin meyar və göstəricilərini müəyyənləşdirmək lazımdır. Xatirə muzeylərinin tamaşaçılarla iş proqramı onlar üçün maraqlı olmalı və onlar tərəfindən həm emosional planda, hm də idrak cəhətdən maraqla qarşılanmalıdır. Müasir mədəniyyətimizin bariz nümayəndələrinin yaradıcılığından bəhs edərkən qeyd etmək lazımdır ki, bu və ya digər mədəniyyət xadiminin yaradıcılığı öz mahiyyəti etibarilə klassik mədəniyyətimizin yeni tarixi şəraitdə davamı hesab oluna bilər. Təbii ki, bu mədəniyyət tarix boyu xalqımıza xas olmuş yüksək mədəni ənənələrdən qaynaqlanır. Qədim dövrün tarixi zənginlikləri tamaşaçılarda ideoloji tərbiyə üçün mühüm vasitədir. Odur ki, xatirə muzeylərində həmin mədəniyyət xadiminin yaradıcılığında milli kaloriti və milli motivləri aşkar edib göstərmək lazımdır. Məhz bütün bunlar şəxsiyyətin formalaşmasında mühüm rol oynayır. Lakin bütün hallarda tamaşaçıya sərbəst mülahizə yürütmək, müqayisə etmək və son qənaətə gəlmək imkanı verilməlidir. Muzey işçisi tamaşaçıya öz fikrini diktə etməməlidir. O, tamaşaçıya düşünmək üçün geniş və əhatəli məlumat verməlidir ki, tamaşaçı bu məlumatın təhlili əsasında rasional nəticə əldə edə bilsin. Muzey işçisinin verdiyi məlumat inandırıcı və məntiqi, tamaşaçının çıxardığı nəticə isə sərbəst və doğru olmalıdır. Muzey işçisinin məlumatı tamaşaçıya bu və ya digər məsələ ətrafında düşünməyə, götür-qoy etməyə, onu ağıl süzgəcindən keçirməyə, özünün mənəvi-ruhu aləmini inkişaf etdirməyə, təşəbbüskarlğını artırmağa imkan verməlidir.

Memorial muzeylərin fəaliyyətində bir mühüm cəhətdə nəzərdən qaçırılmamalıdır: bu fəaliyyətdə bədii-estetik tərbiyə heç də son məqsəd deyil, əhalinin milli-vətənpərvərlik ruhunda tərbiyə edilməsinin bir vasitəsidir. Buna görə də tamaşaçıların hər bir kateqoriyası üçün anlaşıqlı olan dildə, emosional münasibət doğuran vasitələrdən istifadə etməklə, onlarda sarsılmaz vətəndaş mövqeyinin, milli-vətənpərvərlik hisslərinin, milli və ümumbəşəri mədəniyyətin maddi incilərini qiymətləndirmək və dərk etmək qabiliyyəti formalaşdırmaq lazımdır (4 səh 17).

Bədii-estetik tərbiyə daima muzey fəaliyyətinin tərkib hissəsi kimi çıxış etmiş və edəcəkdir. Uzun illər ərzində formalaşmış bu ənənəni pozmaq ümumiyyətlə, muzey işinin səmərəliliyinə mənfi təsir göstərə bilər. Bu baxımdan, "Ölkənin keçmişi və hazırı", "Mənim millətim", "Səməd Vurğun və dünya poeziyası", "Hüseyn Cavid bir dramaturq və islahatçı kimi", "Üzeyir Hacıbəyov və dünya musiqi sənəti" kimi mövzularda aparılan söhbətlər tamaşaçılara milli mədəniyyətimizin klassiklərinin yaradıcılığına yenidən nəzər salmağa imkan verir. Beləliklə, biz gözəllik, xeyirxahlıq, vətənpərvərlik, milli amallar uğrunda fədakarlıq, ölkəmizin tarixi və s. haqqında məlumatları xatirə muzeylərində qorunan materiallardan almaq imkanı qazanmış oluruq.

Bizə bütün bu məlumatlara muzeylərin təmsil etdiyi tarixi şəxsiyyətlərin şəxsi yazışmaları, müxtəlif sənədlər, heykəltəraşlıq nümunələri və s. vermiş olur. Memorial muzeylərdə saxlanılan nadir bədii sənət əsərləri bizə geniş məlumat verməklə yanaşı, həm də bizim onlarla şəxsən mənəvi əlaqə yaratmağımıza şərait yaradır.

Qeyd etmək lazımdır ki, xatirə muzeylərinin kənarda da bədii-estetik tərbiyəvi missiyasını həyata keçirtmək üçün geniş imkanları vardır. Belə ki, onlar bir sıra əmək kollektivləri və müəssisələrlə səmərəli əlaqələr saxlayırlar. Məsələ burasındadır ki, artıq muzeylərin bədii-estetik tərbiyə sahəsindəki fəaliyyəti bir muzey sistemi kimi formalaşmış və əhalinin müxtəlif yaş kateqoriyalarını əhatə edərək, onların simasında daimi auditoriya əldə etmişdir. Bu ekskursiyalar, mühazirələr, səyyar sərgilər getdikcə əhalinin bədii-estetik tərbiyəsində daha fəal rol oynamağa başlayırlar (2.səh.20)

Əhalinin bədii estetik tərbiyə sahəsinin xatirə muzeylərinin cəmiyyətə köməyi daima və səmərəli xarakter daşıyır. Bu muzeylərin ümumi estetik tərbiyə sahəsində rolu get-gedə daha da artacaqdır.

**Nəticə**

Yeni tarixi şəraitdə xatirə muzeyləri milli dəyər və amalların ifadəsi vasitəsinə çevrilməlidir. Milli amillərin, mədəni özgünlüyün mədəniyyət, elm və incəsənət sahələrində nailiyyətlərin əldə edilməsində rolunu göstərməlidir. Xatirə muzeyləri bütünlükdə Azərbaycan xalqının yaradıcı potensiala malik olan, fədakar və mübariz xalq olduğunu, doğma vətən torpağını, onun zəhmətkeş və qonaqpərvər əhalisini tərənnüm etmək yolu ilə xalqı vətənpərvərlik ruhunda tərbiyə edilməsinə, yeni nailiyyətlər əldə etməyə ruhlandırmağa çalışmalıdır (3. səh.12).

**ƏDƏBİYYAT**


1. F.Həvilova "Azərbaycanın memorial muzeylər və mədəni irsimiz". Bakı 2019.
2. M.Əsədova "Memorial muzeylər". Bakı
3. S.Əsgərli "Hüseyn Cavidin ev muzeyi" . Bakı 2009.
4. Kataloq Azərbaycanın memorial xatirə muzeyləri (dərslik). Bakı 2009.
5. Нора П., Пюимеж Ж. де, Винок М. Франция- память СПб., 1999
6. Azərbaycan ədəbiyyatı və incəsənəti görkəmli xadimlərinin xatirə muzeylərini yaratmaq haqqında: [Bakı şəhərində Cəlil Məmmədquluzadə, Bülbül, C.Cabbarlı, M.S.Ordubadinin ev-muzeylərinin yaradılması haqqında]: Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin qərarı, 16 iyun 1976-cı il, № 223 // Azərbaycan Sovet Sosialist Respublikası Hökumətinin qərarları. – 1976. – № 12. – Maddə 96. – S. 745-746.
7. Azərbaycan Milli Ensiklopediyası, 25 cilddə, Azərbaycan cildi, Bakı: AME Elmi mərkəzi, 2004.
8. S.Mövlayeva "Ata-babaların məğrur odu sönməyib", Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin Əsərləri: XII cilddə, VIII cild, Bakı – 2000



***Naxçıvan Dövlət Universiteti**
***e-mail:seyidov.z@gmail.com***

**Zenfira Seyidova, Sevda Ocagguliyeva**


## THE IMPORTANCE OF ARTISTIC AND AESTHETIC EDUCATIONIN MEMORIAL MUSEUMS


One of the levels of recording and transmission of socially important information is memorialization, perpetuation. Museums should serve the mission of preserving the memory of people and our ancestors. The article talks about the activity of memorial museums and its role in the formation of artistic aesthetic education. One of the levels of recording and transmission of socially important information is memorialization, perpetuation. In the period of formation of national self-awareness, museums, which were formed as an institution of perpetuation of social, country and nation's history, often ignore the individual people who make up the nation. People's private residences, places and territories fulfill the tasks of museums. Portraits in the apartment, yellowed letters, old furniture are sources that tell great ideas about its owner and keep the memory alive.



**Keywords:** *memorial museums, aesthetics, exhibit, artistic-aesthetic education, exposition.*



**Зенфира Сеидова, Севда Оджагулиева**


## ЗНАЧЕНИЕ ХУДОЖЕСТВЕННО-ЭСТЕТИЧЕСКОГО ВОСПИТАНИЯ В МЕМОРИАЛЬНЫХ МУЗЕЯХ


Одним из уровней фиксации и передачи социально значимой информации является мемориализация, увековечивание. Музеи должны служить миссии сохранения памяти людей и наших предков. В статье говорится о деятельности мемориальных музеев и ее роли в формировании художественно-эстетического воспитания. Одним из уровней фиксации и передачи социально значимой информации является мемориализация, увековечивание. В период становления национального самосознания музеи, формировавшиеся как институт

увековечивания общественной, страны и национальной истории, зачастую игнорируют отдельных людей, составляющих нацию. Особняки, места и территории людей выполняют задачи музеев. Портреты в квартире, пожелтевшие буквы, старая мебель – источники, рассказывающие прекрасные представления о ее владельце и сохраняющие память.

**Ключевые слова:** *мемориальные музеи, эстетика, экспонат, художественно-эстетическое воспитание, экспозиция.*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 19.01.2024**
**Son daxilolma tarixi:11.03.2024**